# İtaliyada XXV Qış Olimpiya Oyunlarına start verilib

## Açılış mərasimi Milanda keçirilən oyunlarda 3 min atlet iştirak edir

**Fevralın 6-dan 7-nə keçən gecə İtaliyada XXV Qış Olimpiya Oyunlarının açılış mərasimi keçirilib. Bu Olimpiada unikal bir tədbirdir - tarixdə ilk dəfə olaraq, iki şəhər - Milan və Kortina d'Ampetsoda təşkil olunub və fevralın 22-nə qədər davam edəcək.**



Olimpiada tarixində ilk dəfə iki Olimpiya məşəli alovlandırılıb. Biri Milanda - şəhərin ikonik abidəsi olan Sülh Tağının yaxınlığında, digəri isə Kortina d'Ampetsoda - Piatsa Dibona meydanında.

İki həftə ərzində idmansevərlər dünyanın ən yaxşı atletlərinin günəşli şəhərlərdə, dağ zirvələrində və qədim arenalarda mükafatlar uğrunda yarışmalarını izləyəcəklər. 2026-cı il Qış Oyunlarında təxminən 3 min iştirakçı iştirak edir.

Milandakı "San Siro" stadionunda yerli vaxtla saat 20:00-da (Bakı vaxtı ilə saat 23:00) başlayan mərasimdə İtaliya Prezidenti Sercio Mattarella, ABŞ vitse-prezidenti Cey Di Vens, bir neçə ölkənin hökumət nümayəndələri və BOK-un prezidenti Kirsti Koventri də iştirak ediblər.

İfaçılar arasında italyan müğənni Andrea Boçelli, beşqat Qremmi mükafatı laureatı Merayya Keri, "Ən yaxşı mahnı" nominasiyasında "Qızıl Qlobus" mükafatı laureatı Laura Pausini, italyan reper Ghali və çinli fortepiano virtuozu Lan Lanq da olublar. Mövzusu "Harmoniya" olan açılış mərasimində italyan aktyorlar Pyerfrancesko Favino, Sabrina İmpaççiatore və Matilda De Angelis də iştirak ediblər.

Ən çox idmançı ABŞ, Kanada və İtaliyadandır. Azərbaycan ilk dəfə Qış Olimpiya Oyunlarında 1998-ci ildə iştirak edib və Yaponiyanın Naqano şəhərində keçirilən Oyunlarda 4 idmançı ilə təmsil olunub. Bə dəfə isə ölkəmizi iki idmançı - dağ xizəkçisi Anastasiya Papatoma və fiqurlu konkisürən Vladimir Litvintsev təmsil edirlər.

Tarixdə ilk dəfə olaraq Benin, Qvineya-Bisau Respublikası və Birləşmiş Ərəb Əmirliklərindən (BƏƏ) idmançılar Qış Olimpiya Oyunlarına qatılıblar.

Tina və Milo adlı sincablar Olimpiya və Paralimpiya Oyunlarının maskotlarına çevriliblər.

Paralimpiya Oyunları isə martın 6-dan 15-dək Milan və Kortina d`Ampetso şəhərlərində təşkil olunacaq.

Olimpiya Oyunlarını təxminən 2 milyon azarkeşin izləyəcəyi gözlənilir. Yarışların biletlərinin qiyməti 30 dollardan başlayır və 1400 dollara qədər dəyişir.

Olimpiya kəndləri Milan, Kortina d'Ampetso, Livinyo, Bormio, Predazzo və Rasun Anterselvada yerləşir.

İtaliya üç dəfə Olimpiya Oyunlarına evsahibliyi edib: 1956-cı il Qış Oyunları, 1960-cı il Yay Oyunları və 2006-cı il Qış Oyunları.

Qeyd edək ki, XXV Qış Olimpiya Oyunları fevralın 4-də körlinq yarışları ilə başlayıb.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

Azərbaycan.- 2026.- 7 fevral (№ 24).- S.16.